| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 31.10.2002 |
| QEYDİYYAT NÖMRƏSİ | 168 |
| ADI | Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2002, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 651) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.11.2002 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 070.000.000<br>380.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 oktyabr tarixli, 1054 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

~~1. Prokurorluq işçilərinin aylıq vəzifə maaşları və xüsusi rütbələrə görə vəzifə maaşına əlavə haqqın məbləğləri, eləcə də prokurorluq orqanlarının digər işçilərinin aylıq vəzifə maaşları təsdiq edilsin (əlavə 1-11).~~[1]

2. “Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi qaydası” təsdiq edilsin (əlavə 12).

~~3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, prokurorluq işçilərinin və prokurorluq orqanlarının digər işçilərinin bu qərara əsasən müəyyən edilmiş aylıq vəzifə maaşlarının, xüsusi rütbələrə görə vəzifə maaşına əlavə haqqın, iş stajına görə əlavə haqqın, eləcə də "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş başqa ödənişlərlə bağlı xərclərin "Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda prokurorluq orqanlarının saxlanılması üçün nəzərdə tutulmuş vəsait dairəsində ödənilməsini həyata keçirsin.~~

~~4. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin on altıncı hissəsinə və 38-ci maddəsinin ikinci hissəsinə əsasən Azərbaycan Respublikası Hərbi Prokurorluğunun hərbi rütbəsi olan digər işçilərinin hərbi rütbəyə görə maaşlarının məbləğləri "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının, habelə hərbi rütbəyə görə maaşların artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 sentyabr tarixli, 144-7 nömrəli qərarının 2 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilsin.~~

~~5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı əsasında bu qərarın 1-10 nömrəli əlavələrində nəzərdə tutulmayan vəzifələr üzrə maaşları müəyyən etsinlər.~~

6. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi təminatının yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 21 fevral tarixli, 73 nömrəli qərarı (beşinci bənd istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

7. Bu qərar 2002-ci il noyabr ayının 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 31 oktyabr 2002-ci il
168

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~
-
~~**1 nömrəli əlavə**~~

-

~~Azərbaycan Respublikası Baş Prokurorluğunun prokurorluq işçilərinin və mülki işçilərinin~~

-

~~V Ə Z İ F Ə M A A Ş L A R I~~

-

| ~~**Vəzifələrin adı**~~ | ~~**Aylıq vəzifə maaşı (manatla)**~~ |
|---|---|
| ~~**I. Prokurorluq işçiləri**~~ | - |
| ~~Baş prokurorun birinci müavini~~ | ~~2850000~~ |
| ~~Baş prokurorun müavini~~ | ~~2700000~~ |
| ~~İdarə rəisi~~ | ~~2490000~~ |
| ~~Müstəqil şöbənin rəisi~~ | ~~2370000~~ |
| ~~İdarə rəisinin müavini~~ | ~~2340000~~ |
| ~~İdarənin şöbə rəisi~~ | ~~2250000~~ |
| ~~Müstəqil şöbənin rəis müavini~~ | ~~2190000~~ |
| ~~Baş prokurorun böyük köməkçisi~~ | ~~2160000~~ |
| ~~Baş prokurorun köməkçisi, mühüm işlər üzrə böyük müstəntiq~~ | ~~2100000~~ |
| ~~Mühüm işlər üzrə müstəntiq~~ | ~~2040000~~ |

| | |
|---|---|
| İdarənin, şöbənin böyük prokuroru | 1950000 |
| Prokuror-kriminalist | 1920000 |
| İdarənin, şöbənin prokuroru | 1830000 |
| **II. Mülki işçilər** | - |
| Müstəqil şöbənin rəis müavini – baş mühasib | 540000 |
| Baş mütəxəssis | 320000 |
| Aparıcı mütəxəssis | 275000 |
| Mütəxəssis | 255000 |

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

-

**2 nömrəli əlavə**

-

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatının prokurorluq işçilərinin, mülki işçilərin və hərbi rütbəsi olan digər işçilərin

-

V Ə Z İ F Ə M A A Ş L A R I

-

| **Vəzifələrin adı** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|
| **I. Prokurorluq işçiləri** | - |
| Hərbi prokuror – Baş prokurorun müavini | 2700000 |
| Hərbi prokurorun birinci müavini | 2565000 |
| Hərbi prokurorun müavini | 2430000 |
| İdarə rəisi | 2241000 |
| Müstəqil şöbənin rəisi | 2133000 |
| İdarə rəisinin müavini | 2106000 |
| İdarənin şöbə rəisi, müstəqil şöbənin rəis müavin | 2025000 |
| Böyük köməkçi | 1944000 |
| Köməkçi, mühüm işlər üzrə böyük müstəntiq | 1890000 |
| Mühüm işlər üzrə müstəntiq | 1836000 |
| Böyük prokuror | 1755000 |
| Prokuror-kriminalist | 1728000 |
| Böyük müstəntiq | 1701000 |
| İdarənin, şöbənin prokuroru | 1647000 |
| **II. Mülki işçilər** | - |
| Mütəxəssis | 225000 |
| **III. Hərbi rütbəsi olan digər işçilər** | - |
| Xidmət rəisi | 450000 |
| Xidmət rəisinin müavini - baş mühasib | 410000 |
| Komendant | 350000 |
| Komendantın köməkçisi | 315000 |

| | |
|---|---|
| ~~Bölmə komandiri~~ | ~~290000~~ |
| ~~Yavər~~ | ~~225000~~ |
| ~~Tağım komandiri~~ | ~~220000~~ |

-

-
~~Azərbaycan Respublikası Nazirlər  Kabinetinin~~
~~2002-ci il 31 oktyabr  tarixli, 168 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~
-
~~**3 nömrəli əlavə**~~

-
~~Hərbi prokurorluqların prokurorluq işçilərinin, mülki işçilərin və hərbi rütbəsi olan digər işçilərin~~
-
~~V Ə Z İ F Ə  M A A Ş L A R I~~
-

| ~~**Vəzifələrin adı**~~ | ~~**Aylıq vəzifə maaşı (manatla)**~~ |
|---|---|
| ~~**I. Prokurorluq işçiləri**~~ | - |
| ~~Prokuror~~ | ~~2400000~~ |
| ~~Prokurorun müavini~~ | ~~2160000~~ |
| ~~Müstəqil şöbənin rəisi~~ | ~~1896000~~ |
| ~~Mühüm işlər üzrə müstəntiq~~ | ~~1632000~~ |
| ~~Böyük müstəntiq, prokuror-kriminalist~~ | ~~1512000~~ |
| ~~Müstəntiq~~ | ~~1440000~~ |
| ~~Böyük köməkçi~~ | ~~1344000~~ |
| ~~Köməkçi~~ | ~~1296000~~ |
| ~~Stajor~~ | ~~1200000~~ |
| ~~**II. Mülki işçilər**~~ | - |
| ~~Mütəxəssis~~ | ~~175000~~ |
| ~~**III. Hərbi rütbəsi olan digər işçilər**~~ | - |
| ~~Mühafizə bölməsinin rəisi~~ | ~~290000~~ |
| - | - |

-

-
~~Azərbaycan Respublikası Nazirlər  Kabinetinin~~
~~2002-ci il 31 oktyabr  tarixli, 168 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~
-
~~**4 nömrəli əlavə**~~

-
~~Bakı Şəhər Prokurorluğunun prokurorluq işçilərinin və mülki işçilərinin~~
-
~~V Ə Z İ F Ə  M A A Ş L A R I~~
-

| ~~**Vəzifələrin adı**~~ | ~~**Aylıq vəzifə maaşı (manatla)**~~ |
|---|---|
| ~~**I. Prokurorluq işçiləri**~~ | - |
| ~~Prokuror~~ | ~~2550000~~ |
| ~~Prokurorun birinci müavini~~ | ~~2422500~~ |
| ~~Prokurorun müavini~~ | ~~2295000~~ |
| ~~İdarə rəisi~~ | ~~2116500~~ |

| | |
|---|---|
| Müstəqil şöbənin rəisi | 2014500 |
| Böyük köməkçi | 1836000 |
| Köməkçi | 1785000 |
| Mühüm işlər üzrə müstəntiq | 1734000 |
| Böyük prokuror-kriminalist | 1708500 |
| Böyük prokuror | 1657500 |
| Prokuror-kriminalist | 1632000 |
| Böyük müstəntiq | 1606500 |
| İdarənin, şöbənin prokuroru | 1555500 |
| **II. Mülki işçilər** | - |
| Baş mütəxəssis | 290000 |
| Aparıcı mütəxəssis | 250000 |
| Mütəxəssis | 215000 |

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
-
**5 nömrəli əlavə**

-

Bakı şəhərinin rayon prokurorluqlarının prokurorluq işçilərinin və mülki işçilərinin
-
V Ə Z İ F Ə M A A Ş L A R I
-

| Vəzifələrin adı | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|
| **I. Prokurorluq işçiləri** | - |
| Prokuror | 2400000 |
| Prokurorun müavini | 2160000 |
| Böyük müstəntiq, prokuror-kriminalist | 1512000 |
| Müstəntiq | 1440000 |
| Böyük köməkçi | 1344000 |
| Köməkçi | 1296000 |
| Stajor | 1200000 |
| **II. Mülki işçilər** | |
| Aparıcı mütəxəssis | 215000 |
| Mütəxəssis | 175000 |

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
-
**6 nömrəli əlavə**

-

Gəncə, Sumqayıt şəhər prokurorluqlarının prokurorluq işçilərinin və mülki işçilərinin
-
V Ə Z İ F Ə M A A Ş L A R I
-

| Vəzifələrin adı | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|

| **I. Prokurorluq işçiləri** | - |
|---|---|
| Prokuror | 2430000 |
| Prokurorun müavini | 2187000 |
| Böyük müstəntiq, prokuror-kriminalist | 1530900 |
| Müstəntiq | 1458000 |
| Böyük köməkçi | 1360800 |
| Köməkçi | 1312200 |
| Stajor | 1215000 |
| **II. Mülki işçilər** | - |
| Aparıcı mütəxəssis | 240000 |
| Mütəxəssis | 205000 |

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

-

**7 nömrəli əlavə**

-

Əhalisi 80000-150000 nəfərədək olan şəhər (rayon) prokurorluqlarının prokurorluq işçilərinin və mülki işçilərinin

-

V Ə Z İ F Ə  M A A Ş L A R I

-

| **Vəzifələrin adı** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|
| **I. Prokurorluq işçiləri** | - |
| Prokuror | 2340000 |
| Prokurorun müavini | 2106000 |
| Böyük müstəntiq, prokuror-kriminalist | 1474200 |
| Müstəntiq | 1404000 |
| Böyük köməkçi | 1310400 |
| Köməkçi | 1263600 |
| Stajor | 1170000 |
| **II. Mülki işçilər** | - |
| Aparıcı mütəxəssis | 215000 |
| Mütəxəssis | 175000 |

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

-

**8 nömrəli əlavə**

-

Əhalisi 150000 nəfərdən yuxarı olan şəhər (rayon) prokurorluqlarının prokurorluq işçilərinin və mülki işçilərinin

-

V Ə Z İ F Ə  M A A Ş L A R I

-

| **Vəzifələrin adı** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|
| **I. Prokurorluq işçiləri** | - |
| Prokuror | 2400000 |

| | |
|---|---|
| ~~Prokurorun müavini~~ | ~~2160000~~ |
| ~~Böyük müstəntiq, prokuror-kriminalist~~ | ~~1512000~~ |
| ~~Müstəntiq~~ | ~~1440000~~ |
| ~~Böyük köməkçi~~ | ~~1344000~~ |
| ~~Köməkçi~~ | ~~1296000~~ |
| ~~Stajor~~ | ~~1200000~~ |
| **~~II. Mülki işçilər~~** | - |
| ~~Aparıcı mütəxəssis~~ | ~~215000~~ |
| ~~Mütəxəssis~~ | ~~175000~~ |

-

-

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

-

**~~9 nömrəli əlavə~~**

-

~~Əhalisi 80000 nəfərədək olan şəhər (rayon) prokurorluqlarının prokurorluq işçilərinin və mülki işçilərinin~~

-

~~V Ə Z İ F Ə M A A Ş L A R I~~

-

| **~~Vəzifələrin adı~~** | **~~Aylıq vəzifə maaşı (manatla)~~** |
|---|---|
| **~~I. Prokurorluq işçiləri~~** | - |
| ~~Prokuror~~ | ~~2250000~~ |
| ~~Prokurorun müavini~~ | ~~2025000~~ |
| ~~Böyük müstəntiq, prokuror-kriminalist~~ | ~~1417500~~ |
| ~~Müstəntiq~~ | ~~1350000~~ |
| ~~Böyük köməkçi~~ | ~~1260000~~ |
| ~~Köməkçi~~ | ~~1215000~~ |
| ~~Stajor~~ | ~~1125000~~ |
| **~~II. Mülki işçilər~~** | - |
| ~~Aparıcı mütəxəssis~~ | ~~205000~~ |
| ~~Mütəxəssis~~ | ~~160000~~ |

-

-

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin~~
~~2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

-

**~~10 nömrəli əlavə~~**

-

~~Prokurorluq orqanlarının mülki xidmət heyətinin~~

-

~~V Ə Z İ F Ə M A A Ş L A R I~~

-

| **~~Vəzifələrin adı~~** | **~~Aylıq vəzifə maaşı (manatla)~~** |
|---|---|
| ~~Arxiv müdiri, dəftərxana müdiri, sürücü~~ | ~~150000~~ |
| ~~İnspektor, anbar müdiri, xəzinədar, makinaçı, katibə-makinaçı~~ | ~~120000-130000~~ |
| ~~Xidməti otaqları yığışdıran, kuryer, yardımçı fəhlə, gözətçi və digər xidmətedici heyət~~ | ~~100000-110000~~ |

-
-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
-
**11 nömrəli əlavə**

-
Prokurorluq işçilərinin xüsusi rütbəyə görə vəzifə maaşına
-
ƏLAVƏ HAQQIN MƏBLƏĞLƏRİ

-

| **Xüsusi rütbələrin adı** | **Vəzifə maaşına əlavə haqq (manatla)** |
|---|---|
| **I. Ali xüsusi və ali hərbi rütbələr** | - |
| Həqiqi dövlət ədliyyə müşaviri | 180000 |
| I dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-polkovniki | 160000 |
| II dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-leytenantı | 140000 |
| III dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-mayoru | 130000 |
| **II. Xüsusi və hərbi rütbələr** | - |
| Baş ədliyyə müşaviri, ədliyyə polkovniki | 105000 |
| ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı | 90000 |
| kiçik ədliyyə müşaviri, ədliyyə mayoru | 80000 |
| I dərəcəli hüquqşünas, ədliyyə kapitanı | 70000 |
| II dərəcəli hüquqşünas, ədliyyə baş leytenantı | 60000 |
| III dərəcəli hüquqşünas, ədliyyə leytenantı | 55000 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 31 oktyabr tarixli, 168 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**12 nömrəli əlavə**

**Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi**

**Q A Y D A S I**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa və "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 oktyabr tarixli, 1054 nömrəli Sərəncamının icrası olaraq hazırlanmışdır və prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın (bundan sonra - əlavə haqq) ödənilməsi şərtlərini müəyyən edir.

1.2. Prokurorluq işçilərinə qulluğun altıncı ilindən başlayaraq əlavə haqq verilir və həmin haqq hər beş ildən bir artırılır.

1.3. Prokurorluq işçilərinə aylıq vəzifə maaşının iş stajının hər beş ilinə görə 15 faizi həcmində 45 faizdən çox olmamaq şərti ilə əlavə haqq verilir.

1.4. Prokurorluq işçilərinə əlavə haqq prokurorluq orqanlarının saxlanılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş əməyin ödənişi fondu hesabına ödənilir.

## 2. ƏLAVƏ HAQQ ALMAQ HÜQUQU VERƏN İŞ STAJININ HESABLANMASI QAYDASI

2.1. Əlavə haqq almaq hüququ verən iş stajı şəxsin "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş prokurorluq işçilərinə aid olan vəzifəyə təyin edilməsi barədə əmrin verildiyi tarixdən hesablanır.

2.2. Əlavə haqq almaq hüququ verən iş stajına aşağıdakı dövrlər daxildir:

2.2.1. prokurorluq işçilərinə aid olan vəzifələrdə qulluqda olduqları müddət;

2.2.2. həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl prokurorluq işçilərinə aid olan vəzifələrdə qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən prokurorluq orqanlarına qeyd edilən vəzifələrə təyin edilmiş işçilərin həqiqi hərbi xidmətdə olduqları müddət;

2.2.3. məhkəmələrdə hakim, ədliyyə orqanlarında rütbə dərəcəsi (xüsusi rütbəsi) olan vəzifələrdə, o cümlədən rütbə dərəcəsi (xüsusi rütbəsi) tətbiq olunmayan dövrlərdə uyğun vəzifələrdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, ~~Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi,~~ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti,* Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində, eləcə də Azərbaycan Respublikasının Vergilər Nazirliyinin ibtidai istintaq orqanlarında və qanunvericiliklə nəzərdə tutulmuş digər müvafiq qurumlarda zabit vəzifələrində işləmiş (xidmət keçmiş) şəxslərin həmin orqanlarda xidmətdə olduqları müddət;[2]

2.2.4. prokurorluq işçilərinə aid olan vəzifələrdə qulluq edərkən seçkili orqanlara seçilmiş və sonradan bilavasitə prokurorluq işçilərinə aid olan vəzifələrə təyin edilmiş işçilərin seçkili orqanlarda işlədiyi müddət;

2.2.5. prokurorluq işçilərinə aid olan vəzifələrdə qulluq edərkən müvafiq icra hakimiyyəti orqanlarının qərarına (sərəncamına) əsasən işlə əlaqədar xaricə göndərilmiş və qayıtdıqdan sonra bilavasitə prokurorluq işçilərinə aid olan vəzifələrdən birinə yenidən təyin edilmiş işçilərin xaricdə işlədiyi müddət;

2.2.6. prokurorluq işçilərinə aid olan vəzifədə qulluq edən qadınlara hamiləlik, doğum və uşağa qulluq etmək üçün verilən qanunvericiliklə nəzərdə tutulmuş sosial məzuniyyət müddətləri;

2.2.7. dövlət hakimiyyəti orqanlarında hüquq mühafizə orqanlarının fəaliyyəti ilə bağlı müvafiq struktur bölmələrində işləmiş (xidmət etmiş) və sonradan bilavasitə prokurorluq işçilərinə aid olan vəzifəyə təyin edilmiş işçilərin göstərilən orqanlarda işlədiyi (xidmət etdiyi) müddət;

2.2.8. prokurorluq işçilərinə aid olan vəzifələrdə qulluq edərkən vəzifəsinin və əmək haqqının saxlanması şərti ilə işçinin qulluqdan ayrıldığı müddət;

2.2.9. əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət;

2.2.10. ödənişli məzuniyyət dövrləri.

Bu bənddə nəzərdə tutulmayan digər fasilələr iş stajı hesablanarkən nəzərə alınmır.

## 3. ƏLAVƏ HAQQIN HESABLANMASI VƏ VERİLMƏSİ QAYDASI

3.1. Müvəqqəti əvəzetmə üzrə iş zamanı əlavə haqq əsas işin vəzifə maaşına və rütbəsinə uyğun hesablanır.

3.2. Təqvim ayı ərzində əlavə haqqın məbləği artdığı təqdirdə, həmin ay üçün əlavə haqqın məbləği ayın təqvim günlərinə mütənasib şəkildə artırılaraq hesablanır.

Eyni qayda ay ərzində prokurorluq işçisinin vəzifə maaşının dəyişməsi zamanı da tətbiq edilir.

3.3. Əlavə haqq prokurorluq işçisi üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada orta əmək haqqı hesablanarkən nəzərə alınır.

## 4. ƏLAVƏ HAQQ ALMAQ HÜQUQU VERƏN İŞ STAJININ MÜƏYYƏN EDİLMƏSİ QAYDASI

4.1. İş stajını müəyyən edən əsas sənəd əmək kitabçası sayılır. Əmək kitabçası olmadıqda və ya onda lazımi qeydiyyatlar aparılmadıqda, habelə iş dövrləri düzgün əks etdirilmədikdə, iş stajının müəyyən edilməsi üçün əmrlərdən çıxarışlar, şəxsi hesab vərəqələri, əmək haqqının ödəniş cədvəlləri və iş fəaliyyətləri barədə məlumat verə biləcək sair təsdiqedici sənədlər əsas götürülə bilər.

4.2. Əlavə haqq verilməsi üçün iş stajı Azərbaycan Respublikası Baş Prokurorluğunun komissiyası tərəfindən müəyyən edilir. Komissiya Azərbaycan Respublikası Baş prokurorunun müavininin sədrliyi və həmkarlar ittifaqı komitəsinin nümayəndəsinin iştirakı ilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müəyyən edilir və təsdiq olunur.

4.3. Əlavə haqq Komissiyanın qərarına əsasən verilir. İş stajının müəyyən edilməsi haqqında qərar komissiya tərəfindən protokol formasında rəsmiləşdirilir. Protokolun əsli Baş Prokurorluqda saxlanılır, surəti işçinin şəxsi işinə əlavə edilir.

4.4. Əlavə haqq verilməsi üçün iş stajını müəyyən edən komissiyanın qərarından Azərbaycan Respublikası Baş prokuroruna şikayət verilə bilər.

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 20 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
2. 24 dekabr 2010-cu il tarixli **242** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 12, maddə 1123**)
3. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 20 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli qərarı (2 və 6-cı bəndlər istisna olmaqla) qüvvədən düşmüş hesab edilmişdir.

[2] 24 dekabr 2010-cu il tarixli **242** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 12, maddə 1123**) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - "Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası"nın 2.2.3-cü bəndində "**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi,**" sözlərindən sonra "**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi,**" sözləri əlavə edilmişdir.

22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**) ilə "Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası"nın 2.2.3-cü yarımbəndindən "**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi**," sözləri çıxarılmışdır və həmin yarımbəndə "**Fövqəladə Hallar Nazirliyi**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti**," sözləri əlavə edilmişdir.